# ŞƏHİDLİK ÖLMƏZLİK ZİRVƏSİDİR

Şəhid kəlməsinin zahiri mənası Vətən və haqq yolunda Yaradan tərəfindən ona verilən həyatından inamı və sadiqliyi uğrunda keçməkdir. Lakin batininə gəldikdə çox geniş həm dünyəvi, həm də ilahi məzmunları ehtiva edən əqidəni, iradəni və bunlardan doğan əməli fəaliyyəti birləşdirən ifadədir. Rəhilə Orxanın "Ölməzliyə Abidə" kitabı qarşımdadır. Bu kitab Qarabağ müharibəsi şəhidi Nazim Cəbrayılovun 60 illik yubileyi münasibətilə həyat yoldaşının müəllifliyi ilə nəşr olunub.

Kitabı oxuyarkən və tərtibinə diqqət edərkən materialların düzümü və məzmunu demək olar ki, şəhidliyin həm zahiri, həm də batini məzmununu, əhəmiyyətini, mənasını kifayət qədər dərk edirsən. İlk olaraq qeyd edək ki, hər bir insan bir ölkədə, oraya məxsus torpaq üzərində anadan dünyaya gəlir. Müqəddəs dinimiz bu üç amili bizə Vətən buyurub və onun uğrunda şüurlu surətdə ölümün üzərinə yürümək, ona bircə dəfə verilən həyatı düşünərək, sınmaz iradə ilə qurban vermək şəhidlikdir. Çünki vətən övladı anadan olduğu, torpağının naz-nemətləri ilə böyüdüyü ölkədəki cəmiyyətdə, həmin cəmiyyətin mənəvi dəyərləri ilə var olan ana-ata onu tərbiyə edib ərsəyə gətirib, əqidə, ideya sahibi edib. Yaşadığımız həyat sübut edir ki, insanın məsləki, əqidəsi saf, sarsılmaz olanda niyyəti də xalis olur, düz olur, cəmiyyətə, dövlətə yararlı olur, bu niyyətdən də parlaq, başucaldan ölməz əməllər doğulur. Şəhidlik də məhz bu batini mənalarla yaşayan insanlarda baş verir. Nazimin cəbhəyə getməsi və şəhidlik məqamının dərki də bu dediyimizi çox aydın nümayiş etdirir. Əgər oxucularımız şəhidlərin getdikləri ölməzlik yolunu izləsələr çox aydın və ilahi bir təzahürün şahidi olacaqlar. Şəhidlər onları gözləyən ölümü görə-görə üzərinə iradə, inam və əqidə ilə gedirlər, halbuki sağ qalmaq üçün çox aydın yollayrıclarında olduqlarını da aşkar bilirlər, görürlər, lakin bilə-bilə və ən əsası dərk edərək ağılla bu yolu müəyyənləşdirərək şəhidlik zirvəsinə qalxırlar, Vətəninə, torpağına, elinə-obasına, ailəsinə, nəslinə və xalqının gələcəyinə sipər olmaq üçün! Nazim müharibəyə getməyə bilərdi, ailəsi, hələ ərsəyə çatmamış üç övladı vardı. Dinimizdə şəhidliyin bəşəri mahiyyətini açan bir kəlam da vardır: bir insanı xilas edən bəşəriyyəti xilas etmiş kimidir. Bu bəşəri və ilahi sevgidir. Diqqət etsək görərik ki, şəhidlik bəşəri məhəbbəti ailəsindən, elindən, xalqından dünyaya yayılan insanları yaşadan bir mənəvi-əməli yaşam tərzidir. Xalq bu milli şüurla var olur, həyatı nəsildən-nəslə ötürür. Vətən sevgisi dövlətin, millətin hər nəfərinin məhəbbəti, ölkəsinin sərvətlərinin mühafizəsini, ən önəmlisi isə onun torpağının ata-babalarının qanıyla-canıyla yoğrulduğunu, qorunduğunu və gələcək nəsillərə miras kimi verilməsi ehkamını ehtiva edir.

Nazimin taqımı mühasirəyə düşmüşdü, erməni vandalları tanklar və zirehli döyüş maşınları ilə hücuma keçmişdilər. Qüvvələr qeyri-bərabər idi. Bu döyüşün sonu şəhidlik idi. Nazim komandir kimi iki nəfər subay əsgəri arxaya göndərir ki, onlar ölümlə üzləşməsinlər. Bu addım bizcə Nazimin mənəvi dünyasında bir nəslin qorunmasına, davamına önəmli bir örnəkdir desək, yanılmarıq, digər tərəfdən əsl vətənsevərlik və milli qədirbilənlikdir. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı S.Vəliməmmədovun Nazim Cəbrayılovun döyüşlərdə göstərdiyi igidlik və qəhrəmanlıqlarına görə Azərbaycan Respublikasının Dövlət mükafatı və fəxri adı alması üçün Müdafiə Nazirliyinə müraciətində deyilir: "13 aprel 1994-cü il tarixdə saat 6:00 radələrində bir BTR və 50 əsgər ilə düşmən Cavahirli kəndi yaxınlığında yerləşən, Nazim Cəbrayılovun komandiri olduğu taqım üzərinə hücuma keçmişdir. Nazimin düzgün komandirliyi nəticəsində düşmənin bir BTR-i və 30 əsgəri məhv edilmiş və taqımın dəyanəti nəticəsində düşmən əsgərlərinin cəsədini belə apara bilməmişdir. Bu hücumun müvəffəqiyyətlə qarşısının alınması nəticəsində düşmən nəzərdə tutduğu hücum əməliyyatını genişləndirə bilməmiş və ağır itki verərək geri çəkilməyə məcbur olmuşdur. Bu döyüşün heyfini çıxmaqdan ötrü ermənilər 1994-cü il 18 aprel tarixdə 5 tank, 3 BTR və çoxlu canlı qüvvə ilə Nazim Cəbrayılovun komandiri olduğu taqımın üzərinə hücuma keçir. Bu döyüşdə ikinci taqımın komandiri Nazim azğın düşmən tanklarına qarşı çıxaraq əlindəki tank əleyhinə qumbara ilə tankı vuraraq məhv etmişdir. Bundan duyuq düşən ikinci düşmən tankı pulemyotdan atəş açaraq igid döyüşçü, cəsur komandir Nazim Cəbrayılovu yerə sərmişdir. Nazim Cəbrayılovun bu qəhrəmanlığı nəticəsində komandiri olduğu taqımın əsgərləri mühasirə vəziyyətindən çıxa bilmiş və sağ qalmışdır". Müqəddəs kitabımızda buyurulur ki, əbədi dünyada şəhidlərin üzləri günəş kimi nurlu olur. Göründüyü kimi, şəhidlər bu yüksək zirvəni seçirlər ki, şəhidlik nuruyla Vətənlərinin üzərinə əbədi günəş doğsun, bu günəş müqəddəs şəhid qanından yoğrulduqca Vətən deyilən torpaq alınmaz olur, xalqı isə qorunur, daim var olur. Nazim də dərk edərək məhz bu zirvəni seçib!

O xalq tarix boyu daim yaşayır ki, öz şəhidlərini yaşadır, adlarını əbədiləşdirir, qəhrəmanlıq salnamələrini irs kimi nəsildən-nəslə ötürür və tökülən qanların qədrini və qədərini bilir. Şəhid baş leytenant Nazim Cəbrayılov ölümündən sonra ulu öndər Heydər Əliyevin fərmanı ilə 24 iyun 2003-cü ildə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub. Bu şəhidliyin mahiyyəti kitabın tərtibinin ilk səhifələrindən də çox aydın nəzərə çarpır. Nazimin gənclik portretinin üzərində Qarabağa dair məşhur bir beyt yazılıb. Daha sonra Azərbaycan Respublikasının Dövlət himni, Azərbaycanın xanlıqlar dövrünün, Azərbaycan SSR-in, Azərbaycan Respublikasının xəritələri, Bəxtiyar Vahabzadənin "Bayraq" şeiri, "Suverenliyimizin rəmzi" sərlövhəsi ilə hazırkı dövlət bayrağımızın tarixi, müstəqilliyimizin bərpasının döyüşlə alındığı, XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı zamanda olduğu kimi həmin əsrin sonunda da erməni işğalçılarına qarşı torpağımız uğrunda mücadilə olduğunun təsdiqi olan sözləri Əhliyyə Süleymanovun, musiqisi Cavanşir Quliyevin "Əsgər marşı", xalqımızın apardığı bu mübarizənin məqsədinin azadlıq olduğunu bəyan edən Mehmed Akif Ersoyun məşhur "İstiqlal marşı", qazanılan azadlıqda xidməti olan hərbi qulluqçuların təltifi ilə bağlı ulu öndər Heydər Əliyevin 24 iyun 2003-cü ildə verdiyi fərman, ümummilli lider Heydər Əliyevin ən layiqli siyasi varisi, dövlət başçısı İlham Əliyevin "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Fərmanı və bu qayğıya görə Nazim Cəbrayılovun ailəsinin Prezidentə minnətdarlıq məktubu, sonra isə digər sənəd, mətbu və fotomateriallar məntiqi ardıcıllıqla dərc olunub.

Kitabda dərc olunmuş materiallar Nazimin bir şəxsiyyət kimi formalaşdığı ailə və ictimai mühiti çox aydın nümayiş etdirir. Qeyd edək ki, hiss, duyğu və ehtiram dolu bu yazılar maraq, cəlbedicilik və həyəcanla oxunur. Bir məqamı da vurğulamaq bizcə yerinə düşər. Azərbaycan qadınının ailəyə, həyat yoldaşına sadiqliyi, vəfası və cəfakeşliyi! İkinci Dünya müharibəsində iştirak etmiş, həlak olmuş ər oğullarımızın xanımlarının ailə başçılarına qayğı və sədaqətinin, nişanlı qızlarımızın öz nişanlılarının cəbhədən qayıtmasını ömürlərinin axırınadək səbrlə, təmkinlə, inamla gözləmələrinin də şahidiyik. Bu gün bu etibar, ehtiram və sədaqəti Nazim Cəbrayılovun həyat




yoldaşı Rəhilə Orxanda görürük. Birmənalı demək lazımdır ki, şəhidlik amalının ayrılmaz mənəvi tərəfinin biri də ailəsinin şəhidə vəfası, xanımının bu sadiqlik və bu dəyərlərlə onun narahat ruhu qarşısında davam edəcək həyatı ilə adını, əməlini, əqidəsini yaşatması, nəsildən-nəslə ötürməsidir. Rəhilə Orxan da xalqımızın min illər boyu yaşatdığı həmin mənəvi dəyərlərə sadiq qalaraq bu milli mənliklə övladlarını - Fidanı, Jaləni və Orxanı, elimizin dediyi kimi, bir hörüyünü ağ, bir hörüyünü qara hörərək şəhid olmuş Nazim Cəbrayılova layiq böyütmüşdür. Kitabdakı materiallarda bu fədakarlıq da geniş və məzmunlu əks olunub.

Şəhidlər və bu fədakarlıqlar işğal olunmuş ərazilərimizin azad olmasını, soyqırımına məruz qalmış soydaşlarımızın - igidlərimizin, qocalarımızın, gənclərimizin, körpələrimizin, namusu tapdalanmış analarımızın, qızlarımızın, gəlinlərimizin intiqamını almağı qarşımıza bir hədəf kimi qoyub. Bu gün Azərbaycan regionun iqtisadi və siyasi gücünə çevrilib. Hərtərəfli inkişaf ordu quruculuğunda da çox mühüm nailiyyətlərə imza atmağa səbəb olub. Hazırda Azərbaycan Silahlı Qüvvələri dünyanın güclü orduları sırasındadır. Aprel döyüşləri Silahlı Qüvvələrimizin qüdrətini həm erməni işğalçılarına, həm də dünya birliyinə aydın göstərdi. İnanırıq ki, Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə ərazilərimiz sülh yolu ilə olmasa, hərbi əməliyyatla azad olacaq və şəhidlərimizin qanıyla suvarılmış o torpaqlarımızın əsl sahibləri olan azərbaycanlılar öz qədim ata-baba yurdlarında yaşayacaq və Nazimlərimizin ruhları da məhz bu zaman rahat və şad olacaqdır.

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**